AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə: 196-201
https://doi.org/10.59849/2664-5432.2026.2.196

Nərgiz MUSAYEVA*

TƏBİƏT - İNSAN MÜNASİBƏTLƏRİNİN LİNQVOKULTUROLOJİ ƏSASLARI

XÜLASƏ

Məqalədə təbiət-insan münasibətlərinin linqvokulturoloji və fəlsəfi əsaslarından bəhs olunur. Linqvokulturoloji baxımdan təbiət dil vasitəsilə mədəni yaddaşda və milli kimlikdə yaşayır; fəlsəfi baxımdan isə insan varlıq, dəyər və məsuliyyət anlayışları ilə əlaqələndirilir. Təbiət – insan münasibətləri həm simvolik (dil və mədəniyyət), həm də ontoloji - etik (fəlsəfi) müstəvidə qarşılıqlı təsir və vəhdət prinsipi üzərində qurulur. İnsan təbiəti yalnız istifadə olunan resurs kimi deyil, mənəvi və mədəni varlığının ayrılmaz tərkib hissəsi kimi dərk etdikdə daha balanslı və davamlı münasibət formalaşa bilər. Fəlsəfi baxımdan təbiət – insan münasibətləri ontoloji və etik problemlərlə bağlıdır. Antik fəlsəfədə təbiət kosmik harmoniya kimi qəbul olunurdu. Məsələn, Aristotel təbiəti məqsədyönlü və nizamlı sistem kimi izah edirdi. Müasir dövrdə ekoloji fəlsəfə insanın təbiət qarşısında məsuliyyətini ön plana çəkir. Antroposentrik və ekosentrik fəlsəfi yanaşmalar insanı təbiətin bir hissəsi kimi qəbul edir və harmoniyanı əsas prinsip hesab edir. Təbiət-insan münasibətlərinin linqvokulturoloji əsasları etnik şüurda təbiətlə bağlı formalaşmış dil modellərini nəzərdə tutur. Yəni hər bir millət təbiətə münasibətini etnik psixologiyası baxımından ifadə edir.

Açar sözlər: *ekolinqvistika, insan, təbiət, fəlsəfi, linqvokulturoloji*

Təbiət və insan münasibətləri vaxtilə yunan filosoflarını düşündürən əsas problemlərdən biri olmuşdur. Təsadüfi deyil ki, Aristotel "Metafizika" əsərində təbiət anlayışının fəlsəfi yozumunu verir, təbiət məfhumunun dünyəvi mahiyyətini şərh edir. O yazır ki, "mövcud olan şeylərdən bəziləri təbiətə görə mövcuddur, digərləri isə başqa səbəblər nəticəsində. Heyvanlar və onların hissələri, bitkilər və sadə cisimlər — məsələn, torpaq, od, hava, su — bunlar və bunlara bənzər olanları biz təbiətə görə mövcud olanlar adlandırırıq. Bütün sadalananlar təbiətlə yaranmayan şeylərdən açıq-aydın fərqlənir; çünki təbiətə görə mövcud olan hər bir şey özündə hərəkətin və sakitliyin başlanğıcına malikdir — istər məkan baxımından, istər artma və azalma, istərsə də keyfiyyətcə dəyişmə baxımından." [Аристотель: 1981].

Alman filosofu G.V.Hegel fəlsəfəni insanla təbiətin ruhu şəklində interpretasiya edirdi. O yazır ki, "*bizim özəl davranışımızda ümumi tərif olmalı və dərk edilməlidir. Bunu bizim təbiətə münasibətimizdə də görürürk. Biz, məsələn, göy gurultusunu və şimşək çaxmasını görürük. Bu olay bizə tanışdır və biz onu tez-*

* AMEA Nəsimi adına Dilçilik İnstitutunun dissertantı.

tez müşahidə edirik. Lakin insan hissi olayla yalnız tanış olmaqla kifayəyətlənmir; bunun arxasında nəyin durduğunu, nədən ibarət olduğunu bilmək, anlamaq istəyir. Odur ki, biz düşünürük ki, olaydan fərqli bir şey olan səbəbi, iç tərəfind dış olandan fərqlini bilməyə can atırıq. Biz beləliklə, olayı (hadisəni) ikiləşdiririk, onu ikiyə: iç olana və dış olana, gücə və onun görüntüsünə, səbəb və təsirə ayırırıq. Təbiət bizə sonsuz sayda təkcə obrazlar və olaylar göstərir; biz də bu sonsuz çoxluğu vəhdətə gətirmək istəyirik; odur ki, olayları bir-biri ilə müqayisə edirik və onların hər birinin ümumisini dərk etməyə can atırıq" [Hegel: 2005]. Beləliklə də, G.V.Hegel insan idrakının hər zaman təbiəti dərk etməyə, anlamağa çalışdığını xüsusi vurğulayır. Onun bu konsepsiyasının əsas mahiyyəti ondan ibarət idi ki, insan təbiəti anladıqca Ruha qayıdır.

Antik fəlsəfənin aparıcı mövzularından biri məhz təbiət olmuşdur. Yunan filosoflarından biri olan Platonun fikrincə, "*təbiət, yaradıcı tərəfindən kosmosu yaratmaq və onu idarə etmək üçün istifadə olunan bir alət (ὄργανον) mənasında ilahi sənətkarlığın məhsuludur".* Klassik yunan düşüncəsində formalaşmış təbiət anlayışı orta əsr fəlsəfəsi və teologiyası tərəfindən qəbul edilmişdi. Yeni dövr fəlsəfəsi isə, təbiəti insanla (subyektlə) qarşı-qarşıya duran, ondan asılı olmayan, obyektiv şəkildə mövcud olan və inkişaf edən bir dünya kimi başa düşülməsini əsas anlayış kimi seçdi [Энцик¬лопедический словарь. Москва: Прогрес-Традиция, 2008. 896 с.].

Antik yunan fəlsəfə məktəbinin aparıcı nümayəndələrindən olan sofistlərin baxışlarında mərkəzi yeri təbiət konsepti tuturdu. Onların fikrincə, "*insan qanunları təbiətə yalnız o zaman zidd olur ki, onlar kütlənin öz mənfəəti naminə qəbul etdiyi, daha güclüləri qorxutmaq və onların yüksəlməsinin qarşısını almaq məqsədi daşıyan qanunlar olsun."* Platonun fikrincə, *"təbii olan nə ağıldan, nə də bilikdən məhrum deyil, buna görə də qədim elm od, su, hava və torpağı təbiət adlandıranda və onların ilk cisimlər kimi mövcud olan hər şeyi onlardan törədiyini güman edəndə, 'bu adı düzgün işlətmirdi'. Çünki cisimlərdən əvvəl – ruh vardır və hərəkətverici prinsip kimi o, dünyada baş verən yaranışın və məhvin səbəbidir. Buna görə də daha doğru olardı ki, 'hər şeyin təbiəti' kimi məhz ağıllı ruh adlandırılsın"* [Энциклопедический словарь: 2008]. Vaxtilə ədəbiyyatda və rəssamlıqda mövcud olan naturalizm cərəyanının tərəfdarları həyat lövhələrini, müxtəlif obrazları təbii fonda, təbiətin yaratdığı şəkildə canlandırırdılar. Bu cərəyanın mahiyyətində natural fəlsəfə dayanırdı, yəni həyat obrazları reallıqda olduğu kimi, təbiətdəki kimi canlandırılırdı. Memarlıqda da naturalizm bu cür dərk olunurdu. Fəlsəfənin bir qolu olan naturfilosofar həyatın mahiyyətini təbii səbəblərlə izah edirdilər. Onlar təbiətin yeganə yaradıcı qüvvə olmasına inanırdılar. Beləliklə də, müxtəlif elm və incəsənət sahələrində natural baxış təbiətin ilahi qüdrətinin, yaradıcı gücünün inikası idi.

Təbiət hər zaman insan idrakında azadlığın, sərbəstliyin, huzurun məkanı və mənbəyi kimi dərk olunub. Bu dərketmə prosesi müxtəlif diskurs nümunələrində fərqli aspektlərdə özünü göstərir. Məsələyə linqvokulturoloji aspektdən yanaşsaq,

təbiət obyektlərinə münasibət müxtəlif mədəniyyətlərdə analoji və fərqli şəkillərdə qavranılır, dərk olunur. Məlumdur ki, linqvolkulturologiya dillə mədəniyyətin qarşılıqlı təsirini öyrənir. İndiyə qədər aparılan çoxsaylı araşdırmalar sübut edir ki, dil təbiətə təsir etdiyi kimi, təbiət də dilə təsir edə bilir. Bütövlükdə mədəniyyət və dil, təbiət və dil münasibətləri multidissiplinar prinsip və qanunauyğunluqlara əsaslanır. Həm təbiətə aid olan obyektlər, anlayışlar, həm də təbiətdə baş verən proseslərin adları fərqli mədəniyyətlərdə müxtəlif şəkildə qavranıla bilir. Məsələn, qədim türk etnoqrafik təfəkküründə *dağ* hər zaman ucalıq, Tanrıya yaxınlıq, mühafizə simvolikasını yerinə yetirir. Azərbaycan dilinə aid müxtəlif folklor örnəklərində bunu müşahidə etmək olur. "Kitabi-Dədə Qorqud" da dağa xeyir-dua kimi müraciət olunur:

"Qarlı uca dağların yıxılmasın!
Kölgəli hündür ağacın kəsilməsin
Coşğun axan gözəl suyun qurumasın!" [Əlizadə: 2004].

Dastan dilindəki *qarlı uca dağlar* ifadəsi türk etnoqrafik təfəkkürü üçün çox səciyyəvidir. Adətən, eyni təbiət obyektləri müxtəlif mədəniyyətlərdə eyni və ya fərqli şəkillərdə, fərqli simvolikalarda qavranıla bilir. Bunu real faktlarla sübut etmək mümkündür. Bir çox xalqların mifologiyasında və folklorunda dağ Tanrıya yaxın məkan kimi təsəvvür olunur. Müqayisə edək: əgər türk linqvokulturologiyasında dağ daha çox əzəmət, vüqar simvoludursa, slavyan mədəniyyətində *dağ* sakral məkandır, ingilis linqvokulturologiyasında *dağ* qədimlik, köhnəlik rəmzidir. Məsələn, ingilis dilində belə bir frazem var: *as old as hills* hərfi tərcüməsi "dağlar qədər qədim", frazeoloji semantikası isə "həddindən artıq qədim, köhnə bir şey" mənasındadır [Art Logos, №1(6), 2019,c. 111-119.// file:/ prirodno-landshaftnyy-kod-v-angliyskoy-kulture.pdf].

Bütün bunlar ayrı-ayrı xalqların etnotəfəkküründə təbiətlə bağlı anlayışların fərqli mədəniyyət kodları şəklində dərk olunduğunu göstərir. Bunun da səbəbi dünya xalqlarının yüz illər ərzində fərdi inkişafı, düşüncə tərzlərinin, etnokulturoloji baxışlarının özünəməxsusluğudur. Yəni milli sterotiplər kimi, fərdi mədəni kodlar kimi, təbiətə münasibətdə də spesifik düşüncə tərzi formalaşmışdır. Təbiətlə bağlı məfhumlar müxtəlif mədəniyyətlərdə fərqli simvolika ilə çıxış edir. Məsələn, məlumdur ki, *qurd* türk mifopoetikasında, qədim türk kosmoqoniyasında azadlıq rəmzi kimi çıxış edir. Eyni zamanda türk etnik təfəkküründə *qurd*, xüsusilə *bozqurd* "doğuluşu, yaranışı" simvollaşdırır.

Qədim türk inanc sisteminə görə, türklərin ulu babaları dişi qurddan yaranmışdır. *Ayı* rus mədəniyyətində güc simvoludur, ingilis mədəniyyətində *şir* "güc, cəsarət" simvoludur. Xristian simvolikasında *qartal* "Allaha doğru yüksəlişi" əks etdirir. Hind mədəniyyətində *ilan* "kainatın gücünü, həyat enerjisini, yenilənməni" simvolizə edir. Qədim Misir mədəniyyətində isə *ilan* "qoruyucu qüvvə", yunan mifologiyasında isə "şəfaverici qüvvə" hesab edilirdi. Beləliklə, mifoloji təfəkkürdə, fərqli mədəniyyətlərdə, folklor düşüncəsində təbiəti təmsil edən qüvvələr çox zaman sakrallaşdırılır, yaradıcı qüvvələr kimi çıxış edir. Beləliklə,

insan-təbiət münasibətlərinin tarixini izlədikcə bu nəticəyə gəlmək olur ki, daha qədim dövrlərdə insanlar üçün təbiət sakral qüvvə kimi təmsil olunurdusa, sonradan insan amilinin mərkəzi qüvvə kimi təqdim olunması nəticəsində təbiətin insandan asılı olması aktuallaşdı. Bu isə ekoloji problemlərin artması, təbii fəlakətlərin gələcəkdə doğura biləcəyi fəsadların koqnitiv dərki fonunda ekolinqvistika kimi yeni elmi paradiqmaların təşəkkülünə gətirib çıxartdı. Yəni insan övladı bir daha dərk etdi ki, insan təbiətin ayrılmaz bir hissəsidir, təbiətə qarşı yönələn hərəkət və fəaliyyətlər böyük kataklizmlərə yol açа bilər. Bu baxımdan dil də öz rolunu gücləndirməlidir, çünki insan həyatı və təbiəti məhz dilin vasitəsilə kodlaşdırır, dərk edir.

Hər bir dilin linqvokulturoloji potensialında təbiət-insan münasibətləri, təbiət obyektlərinin və təbiət hadisələrinin simvolik-sakral anlamı mühüm yer tutur. Məlumdur ki, hər bir dilin linqvokulturoloji potensialı daha çox frazemlərdə və paremiyalarda müşahidə olunur. Dünya xalqlarının mədəniyyət kodları məhz dilin alt qatını təmsil edən bu linqvistik vahidlərdə mühafizə edilir. Müxtəlif mifologiyalarda, dinlərdə, kultlarda insan təbiət münasibətlərinin həm analoji, həm də fərqli təqdimat formaları ilə tanış oluruq. Türk təfəkküründə yer anlayışı yurd anlayışını assosiasiya edir. Qədim türk etnoqrafik təfəkküründə *yurd yeri* anlayışı mövcuddur. Təbiətlə bağlı milli mədəni kodlar türk etnoqrafiyasının ayrılmaz tərkib hissəsidir. "Kitabi-Dədə Qorqud" dastanında *yurd* konsepti *torpaq* konsepti ilə adekvat şəkildə ifadə olunur. Bu qədim oğuz eposunun dilində *yurt* leksemi torpaq assosiasiyası bildirir. Məsələn: əsərdə Qazan xanın dilində bu sözlər söylənilir:

"Qohum-qəbiləli, komam-yurdum,
Qulanla sığına-keyikə qonşu yurdum,
Səni düşmən haradan talayıb, gözəl yurdum?
Uca evimin tikilisi, yurdu qalmış,
Qoca anamın oturduğuğu yer də qalmış" [Əlizadə: 2004].

Qədim türk etnotəfəkküründə Ötükən müqəddəs torpaq, sakral yer anlamı daşıyırdı. Türk mifik təfəkküründə Ötükən həm də yer ilahəsinin adıdır. Vaxtilə şumerlərdə An göy ilahəsinin adı olmuşdur. Təbiət kultları müxtəlif inanc sistemlərində önəmli yer tutur. Məsələn, Q.R.Qaldanova yazır: "M*onqolların bir qolu olan buryatlarda yer kultu, astral kultlar, heyvan kultları çox geniş yayılmışdır*" [Галданова: 1987 s.115].

Azərbaycan dilində *təbiətin səsləri*, ingilis dilində *sounds of nature,* rus dilində *звуки природа* ifadələri metaforik olaraq insanlarla təbiətin, ekosistemin harmoniyasını ifadə edir. Müxtəlifsistemli dillərdə bu analoji anlamlı ifadələr ekoloji düşüncənin, ekoloji maariflənmənin müasir həyatda vacib elementlərdən olması fikrini aşılayır. Bədii diskursda metaforik ifadələr, məsələn, *sular pıçıldaşır, dağlar nalə çəkdi, dəniz nəfəs aldı, dəryalar coşdu* tipli linqvistik vahidlər bədii mətnlərin məcazlar sistemini yaradır. Bu tipli metaforik ifadələr bədii dilin obrazlılığını artırır, poetik dilə simvolik anlam verir.

Təbiətlə bağlı anlayışların metaforik olaraq insan həyatına transformasiya edilməsi müxtəlif diskurs nümunələrində müşahidə olunur. Məsələn, bədii diskursda işlənən *qızlar bulağından su içmək* frazemi Azərbaycan xalqının etnotəfəkkürü ilə bağlı olaraq milli sterotipləri əks etdirir. Bu frazemdə *qızlar bulağı* ifadəsi qız uşaqlarının ərgənlik vaxtını simvolizə edir. Eyni zamanda *su içmək* ifadəsi isə *qızlar bulağı* ifadəsinin kombinasiyası ilə birlikdə konnotativ funksiya yerinə yetirir. *Qızlar bulağı* ifadəsi Azərbaycan dilində olan realiyalardan biridir. Birbaşa bu ifadə milli sterotipləri ifadə edən anlayışlardandır. Çünki *qızlar bulağı* Azərbaycan dilinin özünəməxsus linqvistik vahididir. Başqa dillərdə bu ifadə və yaxud da bu ifadənin ekvivalenti yoxdur. Yəni *qızlar bulağı* ifadəsi linqvokulturoloji funksiya daşıyan dil elementidir. Bu tipli faktlar sübut edir ki, təbiət-insan münasibətlərinin linqvokulturoloji mahiyyətində etnik psixologiya, milli – mental dəyələr dayanır.

ƏDƏBİYYAT:

1. Hegel, G.V. Fəlsəfə elmləri ensiklopediyası: Məntiq / G.V.Hegel. – Bakı: 2005. – 460 s.
2. Kitabi-Dədə Qorqud. Tərt. S. Əlizadə. Bakı: Öndər, 2004. 376 s.
3. Аристотель. Сочинения: [в 4 томах] / Аристотель. – Москва: Мысль, – т.3. – 1981. – 613 с.
4. Античная философия. Энциклопедический словарь. Москва: Прогрес-Традиция, 2008. 896 с.
5. Галданова, Г.Р. Доламаистские верования бурят. Новосибирск: Наука, 1987. 115 с.
6. Шустова, С.В. Носкова, И.В. Природно-ландшафтный код в английской культуре // Art Logos, №1(6), 2019,с. 111-119.// file:/ prirodno-landshaftnyy-kod-v-angliyskoy-kulture.pdf

THE LİNGUOCULTURAL FOUNDATİONS OF HUMAN–NATURE RELATİONS

ABSTRACT

The article examines the linguistic, cultural, and philosophical foundations of human–nature relationships. From a linguocultural perspective, nature is preserved in cultural memory and national identity through linguistic means, whereas from a philosophical perspective, it is associated with the concepts of existence, value, and responsibility. Human–nature relationships are grounded in the principles of interaction and unity at both the symbolic (linguistic and cultural) and ontological-ethical (philosophical) levels. A more balanced and sustainable relationship can be established when humans perceive nature not merely as a resource to be exploited but as an integral component of their spiritual and cultural existence. From a philosophical standpoint, human–nature relationships are closely linked to ontological and ethical issues. In ancient philosophy, nature was regarded as a form of cosmic harmony. For instance, Aristotle interpreted nature as a

purposeful and orderly system. In the modern era, environmental philosophy places particular emphasis on human responsibility towards nature. Anthropocentric and ecocentric philosophical approaches address the relationship between humans and nature through the concepts of interdependence and harmony. The linguocultural foundations of human–nature relationships encompass linguistic patterns associated with nature that have developed within ethnic consciousness. In other words, each nation expresses its attitude towards nature in accordance with its own ethnic psychology.

***Keywords**: ecolinguistics, human, nature, philosophical, linguocultural.*

ЛИНГВОКУЛЬТУРОЛОГИЧЕСКИЕ ОСНОВЫ ВЗАИМООТНОШЕНИЙ ЧЕЛОВЕКА И ПРИРОДЫ

АННОТАЦИЯ

В статье рассматриваются лингвокультурологические и философские основы взаимоотношений человека и природы. С лингвокультурологической точки зрения природа посредством языка сохраняется в культурной памяти и национальной идентичности, тогда как с философской точки зрения она соотносится с понятиями бытия, ценности и ответственности. Взаимоотношения человека и природы основываются на принципах взаимодействия и единства как в символическом (языковом и культурном), так и в онтологико-этическом (философском) аспектах. Более сбалансированные и устойчивые отношения могут сформироваться тогда, когда человек воспринимает природу не только как ресурс, предназначенный для использования, но и как неотъемлемую составляющую своего духовного и культурного бытия. С философской точки зрения взаимоотношения человека и природы непосредственно связаны с онтологическими и этическими проблемами. В античной философии природа рассматривалась как проявление космической гармонии. Так, Аристотель трактовал природу как целесообразную и упорядоченную систему. В современную эпоху экологическая философия выдвигает на первый план ответственность человека перед природой. Антропоцентрический и экоцентрический философские подходы рассматривают взаимосвязь человека и природы через призму взаимозависимости и гармонии. Лингвокультурологические основы взаимоотношений человека и природы предполагают наличие языковых моделей, связанных с природой и сформировавшихся в этническом сознании. Иными словами, каждый народ выражает своё отношение к природе в соответствии с особенностями собственной этнической психологии.

***Ключевые слова:** эколингвистика, человек, природа, философский, лингвокультурологический.*